**“Respublika ”**.- 2009 .- 13 may .- №101 .- S. 9.

# Azərbaycan səhiyyəsi bu gün

*"Səhiyyə bizim üçün əziz, qiymətli bir sahədir və onun inkişafı üçün lazımi tədbirlər görüləcəkdir".*

**Heydər ƏLİYEV.**

**Hər bir millət, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac duyur. Sözün əsl mənasında hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur, Daim bu torpaq, bu millət dahilər, onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib.**

**Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan admı öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi itə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətinin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə məxsusdur.**

**Heydər Əliyevin Azərbaycan səhiyyəsinə bəxş etdiyi töhfələr əvəzsizdir.**

Ötən illərin 60-cı illərinin sonu—70-ci illərin əvvəllərində bütövlükdə SSRİ-də olduğu kimi, Azərbaycan cəmiyyətində, səhiyyəsində də inkişaf bir o qədər ürək açan səviyyədə deyildi. Məhz bu cür çətin bir dövrdə Heydər Əliyev respublikaya rəhbərlik etməyə başladı. Xalqın hər bir nümayəndəsi bu böyük şəxsiyyətin gəlişi ilə respublikada müsbət yönümdə əsaslı dəyişikliklərin olacağına əmindi. Sözün əsl mənasında xalq yanılmadı.

1969-cu ilin dekabr ayında respublika Ali Sovetinin yeddinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə səhiyyə qanunvericiliyinin əsasları barədə qərar qəbul edildi. Məhz bu, çox-saylı və müxtəlif tədbirlərin əsasını təşkil edən bir qərar idi. Hər kəsə çox yaxşı bəlli olan sağlamlıq məcəlləsi barədə qərarın qəbul edilməsi bu sahədə çox böyük inkişafa səbəb oldu. Səhiyyə haqqında Azərbaycan SSR qanunu da məhz Heydər Əliyevin zəhmətinin nəticəsidir.

1970-80 - ci illərdə Heydər Əliyev 30-a yaxın gənc azərbaycanlı alimin müxtəlif ixtisaslar üzrə ittifaq səviyyəsində doktoranturaya qəbul edilməsi-nə nail oldu.

Heydər Əliyev "Sağlamlığımızın qayğısına sağlam ikən qalaq" prinsipini əsas tutaraq səhiyyə sahəsində yeni, uğurlu addımların atılması üçün böyük işlər görürdü. 70-ci illərdə ucqar rayon və kəndlərdə xəstəxana və poliklinika binalarının tikilməsi və təmirinə, ixtisaslı həkimlərə, xüsusilə kardioloq, onkoloq, ginekoloq, nevropatoloq və digərlərinə böyük ehtiyac olduğunu bilən Heydər Əliyev bu sahəyə də xüsusi diqqət ayırırdı. Həkimlərin və orta tibbi təhsilli işçilərin çatışmazlığını aradan qaldırmaq üçün ilk növbədə Heydər Əliyevin təşəbbüsü ilə Tibb İnstitutuna tələbə qəbulu artırıldı, ucqar kənd rayonlarından gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Tibbi kadrlara ehtiyac olan rayonlardan gəlmiş bacarıqlı gənclər ictimai təşkilatların zəmanəti əsasında güzəştli qrupun hazırlıq şöbələrinə qəbul olunmağa başladılar. Bununla da rayonların səhiyyə müəssisələrində kadr çatışmazlığı aradan qalxmağa başladı. "Səhiyyə həddindən artıq geniş, həyatın bütün sahələrini əhatə edən və cəmiyyət üçün, dövlət üçün, hər bir insan üçün çox lazımi bir sahədir. Ona görə də hər bir insan həkimə hörmət edir, səhiyyə işçisinə hörmət edir. Həkimlər də insanlara tibbi yardım göstərməklə, onları müalicə etməklə özlərinə böyük mənəvi hörmət, ehtiram qazanırlar", - deyirdi Heydər Əliyev.

Qazanılan uğurlar nəticəsində Azərbaycan səhiyyəsi Heydər Əliyevə minnətdar olaraq ümumittifaq müstəvisinə çıxmağa başlayırdı.

1974-cü ildə beyində qan dövriyyəsinin keçici pozulmalarının qarşısının alınması və müalicəsi məsələlərinə həsr edilmiş ümumittifaq simpozium, 1977-ci ildə oftalmoloqların ümumittifaq elmi cəmiyyətinin plenumu məhz Bakıda keçirildi.

Azərbaycan səhiyyəsinin günbəgün inkişafı öz bəhrəsini verməkdə idi. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində Azərbaycan səhiyyəsi qısa müddətə nəinki ümumittifaq, eləcə də beynəlxalq müstəviyə çıxmağa başladı. Məhz Heydər Əliyev 1970-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) regionlararası seminarının Bakıda keçirilməsi barədə qərar qəbul etdi. 70-80 - ci illərdə Azərbaycanda bu cür seminarların keçirilməsi artıq ənənə halını almışdı. Bu illərdə Heydər Əliyev azərbaycanlı tələbələri SSRİ-nin qabaqcıl tibb mərkəzlərinə göndərirdi.

Heydər Əliyevin diqqəti nəticəsində hər il ən yaxşı həkimlərin, tibb mütəxəssislərinin orden, medal və fəxri fərmanlarla təltif edilməsi barədə qərarlar qəbul olunur, onlara respublikanın xalq həkimi, əməkdar həkim, "Səhiyyə əlaçısı" fəxri adları verilir, maaş dərəcələri və vəzifə maaşları artırılırdı.

23-24 oktyabr 1982-ci il tarixi bütün tibb işçilərinin yaddaşına əbədi həkk olunub. Məhz o günlərdə sahə həkimlərinin keçirdiyi respublika qurultayında Heydər Əliyev də iştirak etmişdi.

Heydər Əliyev Azərbaycan səhiyyəsinin inkişaf etməsi üçün bir çox təşəbbüslər irəli sürür, bu sahənin mütəxəssisləri üçün böyük imkanlar yaradırdı. 1985-ci ildə Moskva şəhərində Heydər Əliyev bu sözləri söylədi: "Təbabət insan biliklərinin və əməli fəaliyyətin bütün başqa sahələrindən daha artıq dərəcədə ümumbəşəri xarakter

daşıyır".

Azərbaycan Respublikasının sosial inkişafı sahəsində tibb işçilərinin xidmətlərini və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılmasını nəzərə alaraq 2001 - ci ilin 4 iyun tarixində Heydər Əliyev hər il 17 iyun tarixinin Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunması barədə sərəncam verdi.

Hələ Heydər Əliyev Moskvada işləyərkən başda professor Rinat Akçurin olmaqla bir qrup kardiocərrah ona müraciət edərək ürəkdə o vaxtlar icazə verilməyən eksperimental və cari klinik əməliyyatlar aparılması məqsədi ilə kömək göstərməsini xahiş etmişdi. Həkim olmamasına baxmayaraq, məsələni dərindən təhlil edən Heydər Əliyev bu işin müsbət həllinə təsir göstərdi. Bir neçə ildən sonra cərrah Rinat Akçurin Boris Yeltsinin ürəyində sensasiyalı cərrahiyyə əməliyyatı apararaq onu xilas etdi.

1994-cü ildən başlayaraq Heydər Əliyevin göstərişi ilə dövlət büdcəsindən səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitinin durmadan artırılması üçün konkret tədbirlər planı həyata keçirilirdi.

1994-cü ilin dekabr ayında Azərbaycan Prezidenti UNİCEF-in rəhbərliyi ilə səhiyyə sahəsində mütərəqqi dəyişikliklər edilməsi və yeni səhiyyə sistemi yaradılması məqsədi ilə əməkdaşlıq proqramı imzaladılar.

1995-ci ilin noyabr ayında respublika Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ftiziatriya və Pulmonologiya İnstitutunun 50 illik yubileyi ilə bağlı tədbirdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı səhiyyəyə olan diqqətin daha bir göstəricisidir.

Azərbaycanda oftalmologiyanın tarixinə nəzər salanda hələ ötən əsrin birinci yarısında traxoma xəstəliyinin görmə orqanlarında ən geniş yayılmış xəstəlik olduğunun şahidi oluruq. Ötən əsrin 20-ci illərinədək bu ixtisas üzrə cəmi 5 həkim çalışırdı. 1920-ci illərdən başlayaraq bu sahəyə böyük diqqət ayrıldı. Nəticədə Bakıda 60 çarpayılıq mərkəzi göz xəstəxanası, sonradan isə həmin xəstəxana bazasında traxomotoz dispanser açıldı. Respublikanın müxtəlif bölgələrindən bir çox insanlar göz xəstəlikləri ilə bağlı olaraq məhz buraya müraciət edirdilər. Müraciətlər günbəgün artırdı. Bu səbəbdən 1946-cı ilin yanvarında Mərkəzi Klinik Göz Xəstəxanasının bazasında 120 çarpayılıq stasionar bölməsi olan Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutu təşkil edildi. 1966-cı ildə institutun böyük kollektivi öz uğurlarını qeyd edirdilər. Çünki məhz bu fədakar həkimlərin zəhməti nəticəsində traxoma xəstəliyinin tamamilə ləğvinə nail olundu. Bu gün mehriban şəxsiyyət, böyük oftalmoloq Zərifə xanım Əliyevanın adını daşıyan Oftalmologiya institutu daim respublika prezidenti Heydər Əliyevin də diqqət mərkəzində idi.

1935-ci ildə yaradılan Azərbaycan səhiyyəsi üçün çox böyük önəm daşıyan Əziz Əliyev adına Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 60 illik yubileyinin keçirilməsi barədə fərman da məhz Heydər Əliyev tərəfindən imzalanıb.

Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə səhiyyənin qanunvericilik bazası təkmilləşdirilib. "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İmmun çatışmazlığı virusunun törətdiyi xəstəliyin yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "İnsan orqanlarının və toxumalarının transplantasiyası haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Tibbi sığorta haqqında" qanunlar, eləcə də "Əhaliyə tibbi yardım göstərməklə, virusologiya sahəsində elmi araşdırmalarla və xidməti vəzifələrini yerinə yetirərkən virus preparatları istehsalı ilə məşğul olan işçilərin immun çatışmazlığı virusunun törətdiyi xəstəliyə yoluxmasına, eləcə də bununla əlaqədar şikəstlik və ölüm hallarına qarşı məcburi dövlət sığortası haqqında" əsasnamə qəbul edilib.

Respublika Prezidentinin sərəncamı ilə Avropa ölkələri və Türkiyə tərəfindən ölkəmizə verilmiş kreditlərin bir qismi dava-dərman alınması üçün ayrıldı. Türkiyənin 12 əczaçılıq firmasından və Avropa İttifaqının üzvü olan ölkələrin əczaçılıq firmalarından alınmış dərman preparatlarının çox hissəsi müalicə-profilaktika müəssisələrinə və dərmanların alınmasında güzəşt hüququ olan xəstələrə verildi.

1997-ci ildə malyariya xəstəliyi ilə bağlı epidemioloji vəziyyət Azərbaycanda heç də yaxşı deyildi. Bu problemlə şəxsən özü məşğul olan prezident 1997-ci ilin 19 iyun tarixində keçirilmiş Ümumrespublika müşavirəsində xəstəliyə qarşı tədbirlər planının qısa müddətə həyata keçirilməsi barədə Səhiyyə Nazirliyinə göstəriş verib.

Bütün dünyanın ən böyük problemlərindən biri olan narkomaniya, əfsuslar olsun ki, Azərbaycan üçün də həllini tələb edən xəstəliklərdən biri idi. Bu səbəbdən narkomaniyaya qarşı mübarizə aparmaq məqsədi ilə prezident narkomaniya, narkotik və psixotrop vasitələrin qanunsuz dövriyyəsinə qarşı ümummilli mübarizə proqramı çərçivəsində Səhiyyə Nazirliyinə daxili ehtiyatları hesabına həmin kontingent üçün stasionar, anonim müalicə kabinetləri yaradılmasını tapşırdı.

Məhz Prezident Heydər Əliyevin Yaponiyaya səfərindən sonra bu ölkənin hökuməti respublikamıza 6 milyon dollar məbləğində təmənnasız yardım proqramı tərtib etmişdir. Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası və Ş.Ələsgərova adına 5 saylı doğum evi həmin proqram çərçivəsində ən yeni aparatlarla təchiz edilib.

2000-ci ilin dekabr ayında isə prezident Heydər Əliyevin iştirakı ilə müasir dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxananın açılış mərasimi olub.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan səhiyyəsinin inkişafı üçün gördüyü işlər haqda çox danışmaq olar. Çünki digər sahələrdə olduğu kimi səhiyyənin də inkişafı yolunda ümummilli liderin xalqının hər bir

nümayəndəsinin parlaq gələcəyini düşünərək gördüyü işlər öz dəyəri, böyüklüyü ilə əvəzsizdir.

"Mən həkimi çox sevirəm, səhiyyəni çox sevirəm. Deyə bilərəm ki, mən sizlərin dostuyam. Siz isə mənim bir nömrəli dostumsunuz"—Məhz mətn boyu səhiyyə haqda işlənən bir çox önəmli və dəyərli fikirlər kimi, bu cümlə də ulu öndər Heydər Əliyevə məxsusdur.

"Yoxsulluğun aradan qaldırılması və iqtisadi inkişaf səhiyyəsiz mümkün deyil". Bu gün bu fikirlər Heydər Əliyev məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məxsusdur.

Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğun olması, çox böyük nailiyyətlərin əldə olunması bu sahədə çalışan hər bir mütəxəssisin qarşısında durmuş önəmli vəzifələrdən biridir.

Səhiyyə Nazirliyi qarşısında duran vəzifələrin günün tələblərinə uyğun şəkildə icrası bu sahədə bir çox dəyişikliklərin aparılmasını tələb edirdi. Bu məqsədlə Səhiyyə Nazirliyinin mərkəzi aparatının strukturunda bir sıra dəyişikliklərin edilməsinə başlandı. Çox təəssüflər olsun ki, son illər əhaliyə göstərilən tibbi yardımın səviyyəsi də heç ürəkaçan deyildi. Azərbaycan Respublikasının Konstitusiyası və "Əhalinin sağlamlığının qorunması haqqında" 26 iyun 1997-ci il tarixli qanunu ilə vətəndaşların təsbit olunmuş hüquqlarının mütəmadi olaraq pozulması çox böyük narahatlıqların yaranmasına səbəb olurdu. Bununla əlaqədar olaraq "Azərbaycan Respublikasının əhalisinə zəmanətli tibbi yardımın təşkil edilməsi barədə" Səhiyyə Nazirliyinin əmri hazırlanır. Bu əmrlə göstərilən zəmanətli tibbi yardımın növləri və həcmi, eləcə də terapevtik xəstələrin müalicəsi, təxirəsalınmaz əməliyyatlar və doğuş zamanı işlədilən ən vacib dərman preparatlarının, sarğı materiallarının keyfiyyətedici siyahısı müəyyənləşdirilir. Respublikanın, o cümlədən Bakı şəhərinin əhalisinə zəmanətli paket çərçivəsində yardım göstərmək üçün Respublika Klinik Xəstəxanası, Klinik Tibbi Mərkəz və 2 nömrəli Bakı Şəhər Uşaq Klinik Xəstəxanası ayrılır.

Hər kəsin xəstələndiyi məqam çox böyük ehtiyac duyduğu dərman preparatlarına da nəzarət xüsusi diqqət tələb edirdi. Əczaçılıq sahəsində nəzarətin gücləndirilməsi məqsədi ilə "İnnovasiya və Təchizat Mərkəzi" səhiyyə nazirinin 14 noyabr 2005-ci il tarixli 126 saylı əmrinə əsasən yaradılıb. Yarandığı gündən İnnovasiya və Təchizat Mərkəzi əczaçılıq fəaliyyəti sahəsində lisenziyalaşdırma, dərman və immunobioloji preparatların, tibbi texnika və tibb ləvazimatlarının qeydiyyatı, idxalı, ixracı, istehsalı, daşınması, buraxılması və təchizatı, dövriyyəsi, eləcə də onların təhlükəsizliyi və keyfiyyəti üzərində nəzarəti yüksək səviyyədə həyata keçirir. Mərkəzin mütəxəssisləri mütəmadi olaraq apteklərə reydlər keçirir. Yoxlamalar nəticəsində qanunsuz fəaliyyət göstərən apteklərin fəaliyyətinə son qoyulur, saxta dərman preparatları aşkar olunaraq onların ölkəyə daxil olmasına qadağalar qoyulur.

Xaricdə müalicə üçün verilmiş rəylərin nizamlanması məqsədi ilə xüsusi komissiya yaradılıb.

Səhiyyə üzrə dövlət xərclərinə gəldikdə 2006-cı ildə bu sahədə 2005-ci illə müqayisədə 53 faiz, 2007-ci ildə 2006-cı illə müqayisədə isə 50 faiz artım olmuşdur.

Qeyd edək ki, respublikamız səhiyyə xərclərinə ayrılan vəsaitin artma tempinə görə dünyanın əksər ölkələrindən yüksəkdədir. Möhtərəm Prezidentimiz İlham Əliyev çıxışlarından birində qeyd etmişdir: "İndi bizim iqtisadi imkanlarımız var. Bilirsiniz ki, biz ilk növbədə bu imkanlardan əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq üçün istifadə edirik və edəcəyik. Ona görə də səhiyyə sistemində ciddi islahatların aparılmasına dəstək olaraq, maliyyə vəsaiti ayıracağıq".

2006-cı ilin əmək haqqı 2005-ci ilin orta illik əmək haqqı ilə müqayisədə 1,5 dəfə artmışdır.

"Dərman, sarğı ləvazimatları və materiallarının alınması" sahəsi də daim diqqət mərkəzində olan və mütəmadi vəsait ayrılan sahələrdən biridir. 2005-ci ilə nisbətən 2007-ci ildə "Dərman, sarğı ləvazimatları və materiallarının alınması" sahəsinə ayrılan vəsait 7 dəfə artmışdır.

İndi respublikamızda müalicəsi böyük məbləğ tələb edən bir sıra sosial xəstəliklər vardır. Cənab Prezidentin dəstəyi ilə Nazirlər Kabineti tərəfindən qəbul olunmuş, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və digər nazirliklər ilə razılaşdırılmış sosial yönümlü xəstəliklərə aid 9 Dövlət Proqramı (Xroniki böyrək çatışmazlığı, şəkərli diabet, hemofiliya və talassemiya irsi qan xəstəlikləri, ana və uşaqların qorunması, elektron sağlamlıq kartı, onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı, yoluxucu xəstəliklərin immunoprofilaktikası, qanın və qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafı və tibbi müayinə kartı üzrə dövlət proqramları) qəbul olunmuş və bu məqsədlə 2007-ci ilin dövlət büdcəsində 40 milyon manat vəsait nəzərdə tutulmuşdu.

İlk dəfə olaraq hemofiliyalı, talassemiyalı və onkoloji xəstələr dərman preparatları ilə dövlət tərəfindən pulsuz təmin olunurlar və olunacaqlar. Xroniki böyrək çatışmazlığı olan xəstələr üçün açılan yeni mərkəzlərdə 600-dən çox xəstə dövlət büdcəsi hesabına müalicə alır.

Bir zamanlar müalicəsi respublika da mümkün olmayan xəstəliklərin müalicəsinin müxtəlif ölkələrdə həyata keçirilməsi səbəbindən daim insanlar arasında müəyyən narazılıqlar yaranırdı. Dünyanın müxtəlif ölkələrinin xəstəxanalarında müalicə almaq heç də hər kəsin maddi durumu ilə üst-üstə düşmürdü. Bu da Səhiyyə Nazirliyinin diqqətindən yan ötmədi. Bu gün respublikamızda olan ürəkdə ən mürəkkəb əməliyyatlar—ürək qüsurlarının korreksiyası, ürəyin işemik xəstəliyinin cərrahi müalicəsi, sümük iliyinin köçürülməsi, plastik cərrahiyyə əməliyyatları müvəffəqiyyətlə həyata keçirilir.

Səhiyyə sahəsində çalışan kadrla-rın savadlarının yüksək olmasına, bir sözlə, mütəxəssislərə daim çox böyük ehtiyac var. Çünki yaşından asılı olmayaraq hər bir vətəndaşın həyatı, onun xəstəlikdən azad olaraq sağlam həyata qovuşması həkimin bilik səviyyəsindən çox asılıdır. Təəssüf ki, səhiyyə sahəsində bu sahədə vəziyyət bir o qədər də ürəkaçan deyil. Bu səbəbdən nazirliyin göstərişi ilə kadrların hazırlıq səviyyəsinin qiymətləndirilməsində attestasiya deyil, ümumi testlər mühüm rol oynayacaq. Artıq bir çox sahələr üzrə test sualları hazırdır. Testləşmənin

təşkili Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının köməkliyi ilə həyata keçiriləcəkdir.

Bəzi xəstəxanaların təmirsiz, acınacaqlı vəziyyətində olması bu mərkəzlərə tez-tez müraciət edən əhalidə daim narahatlıq və narazılıqlara səbəb olurdu. Xalqın çox böyük bir qisminin müraciət etdiyi Kliniki Tibbi Mərkəzin (Təcili Tibbi Yardım Xəstəxanası və 1 nömrəli Bakı Şəhər Klinik Xəstəxanası) də bu vəziyyətdə olması diqqətdən yayına bilməzdi. Bu səbəbdən xəstəxananın əsaslı təmiri üçün Azərbaycan Respublikasının Prezidentinin tapşırığına əsasən vəsait ayrılır.

Çox vaxt ucqar bölgələrdə, avtomobillərin qalxa bilmədiyi ərazilərdə yaşayan insanların müalicəsi, onların şəhər xəstəxanalarına vaxtlı-vaxtında gətirilmələri əsaslı problemə çevrilirdi. Digər mühüm əhəmiyyət kəsb edən işlərlə birgə bu məsələ də nazirliyin diqqət mərkəzində olaraq qalırdı. Aparılan işlərin nəticəsi olaraq Təcili Təxirə Salınmaz Tibbi Yardım Xidmətinin yüksək səviyyədə işləməsi, xəstələrin, həkimlərin uzaq ünvanlara vaxtında çatdırılmaları üçün bir çox məşhur şirkətlər, eləcə də "Azal" şirkəti ilə danışıqlar aparılıb və gələn ildən nəzərdə tutulan layihələrin həyata keçirilməsinə başlanacaq. Lakin bu son deyil. Belə ki, respublikanın 12 rayonunda xalqın ehtiyacını ödəyəcək yüksək səviyyəli təcili yardım məntəqələri də yaradılıb.

Bakı kənd və qəsəbələrinin əhalisinin sosial müdafiəsinin həlli, onların rifahının qaldırılmasına imkan verəcək proqram da işlənilib hazırlanmışdır. Proqramda 25 tibb müəssisəsinin tikintisi, yenidən qurulması və təmiri nəzərdə tutulub. Respublika üzrə 30-dan artıq tibb müəssisəsinin tikintisi, təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması üzrə proqram da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çox böyük dəstəyi ilə həyata keçirilir.

2005-ci il dekabr ayının sonlarında Zabrat qəsəbəsi əhalisinin müraciəti nəzərə alınaraq təməli qoyulmuş 25 çarpayılıq xəstəxananın 2006-cı ilin sentyabr ayında, yəni bir neçə ay ərzində başa çatdırılması və açılışının, Şüvəlan qəsəbəsindəki 31 saylı Birləşmiş Şəhər Xəstəxanasının yenidənqurmadan sonra açılışının Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilməsi Bakı kənd və qəsəbələrinin əhalisinin sosial müdafiəsinə ölkə rəhbərinin qayğısının bariz nümunəsidir.

Dövlət başçısının ölkədə səhiyyə sisteminin yaxşılaşdırılması sahəsində fərman və tapşırıqlarına uyğun olaraq Səhiyyə Nazirliyi 2006-cı il dekabrın 16-dan 30-dək Azərbaycanda "Səhiyyə günləri" adlı aksiya keçirmişdir. "Səhiyyə günləri" çərçivəsində Bakı, Salyan, Masallı, Bərdə, Yevlax, Gəncə, Şəkidə 30-dan çox səhiyyə obyektinin açılışı olmuşdur. Bu səhiyyə müəssisələri dövlət büdcəsindən ayrılmış maliyyə vəsaiti hesabına təmir edilən və ya yenidən qurulan poliklinika, təcili yardım məntəqələri və xəstəxanalardır.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi respublikamızda fəaliyyət göstərən beynəlxalq qurumlar, donor təşkilatları ilə də işgüzar əlaqələri genişləndirir.

2006-cı ilin yanvar ayında səhiyyə naziri Oqtay Şiraliyevin Ümumdünya Səhiyyə Təşkilatının İcraiyyə Komitəsinin üzvü seçilməsi, ÜST ilə olan əlaqələri daha da möhkəmləndirib. Belə ki, Azərbaycana "qus qripi" xəstəliyi gəldiyi gündən ÜST mütəxəssisləri ilə Azərbaycan Səhiyyə Nazirliyi mütəxəssislərinin birgə və məsuliyyətli işbirliyi öz müsbət nəticəsini göstərdi. Bununla da bütün dünyada böyük narahatlığa səbəb olan "quş qripi" xəstəliyi qısa bir zamanda Azərbaycandan sovuşdu.

Azərbaycan səhiyyəsində aparılan islahatlar getdikcə öz bəhrəsini verir. Xarici dövlətlər tərəfindən Azərbaycan səhiyyəsinə göstərilən diqqət, 2006-cı il 25-26 aprel tarixlərində rəsmi səfərlə Azərbaycana gələn Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Con Vuk Linin söylədiyi fikirlər buna böyük sübutdur: "İslahatlar mürəkkəb mərhələdir. Azərbaycan bu islahatlara böyük həvəs və maraqla yanaşır. Azərbaycan Səhiyyə Nazirliyi daim bizim dəstəyimizə güvənə bilər".

Dünya Bankının dəstəyi ilə Səhiyyə Nazirliyində "Səhiyyədə islahatlar" layihəsi də böyük uğurla həyata keçirilir. Bu layihə səhiyyənin daha müasir, dünya standartlarına cavab verə biləcək inkişafına yol açır.

Azərbaycanda səhiyyə sahəsində fəaliyyət göstərən BMT-nin Əhali Fondunun, UNİCEF-in və digər beynəlxalq qurumların birgə işini xüsusi qeyd etmək lazımdır. Bu təşkilatlarla birgə Səhiyyə Nazirliyi tərəfindən 20-yə yaxın layihə üzrə səhiyyənin müxtəlif sahələrini əhatə edən proqramlar çərçivəsində iş aparılır. Bundan başqa, BMT-nin Qida Proqramı Fondu, Sərhədsiz Həkimlər, Beynəlxalq Tibb Korpusu, Qırmızı Xaç Federasiyası və digər nüfuzlu qeyri-hökumət təşkilatları, fondları ilə birgə müxtəlif layihələr üzrə iş davam etdirilir.

2006-cı ilin mart ayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin sədri Yakob Kellenbergin Azərbaycana səfəri zamanı da səhiyyədə aparılan islahatlar, vərəm xəstələrinə göstərilən diqqət müzakirə obyekti olub.

Azərbaycan səhiyyəsinin günbəgün inkişaf edən dünya səhiyyəsi ilə uzlaşması, onun dünya standartlarına cavab verməsi, çox böyük nailiyyətlərin əldə olunması bu sahədə çalışan hər bir səhiyyə işçisinin qarşısında duran önəmli vəzifələrdən biridir. Xalqın səhiyyədən razılığı-dövlətdən razılığı deməkdir. Səhiyyə işçilərinin əməyinin ən böyük mükafatı isə xalqın maddi rifahının və sağlamlığının qorunması, həyat səviyyəsinin günbəgün inkişaf etdirilməsidir.

Nərgiz RÜSTƏMLİ.